

HAFİZ ƏLİMƏRDANLI

## *Bir xalıdır Azərbaycan*

Vətənimdir Azərbaycan,
Gəzmişəm mən neçə məkan,
Yadda qalan, yaddan çıxan,
Sorağın var uzaqlardan,
İftixarla söylərəm mən,
Qoy, eşitsin bütün aləm,
Şöhrətimdir ana vətən.

Bakı döyən qəlbin sənin,
Şah əsərin, seyrə gəlsin,
Bütün aləm, qərbin, şərqin,
Baxıb görsün, qiymət versin,
Səlnamələr yazıb getsin.

Gəncə bu gün tarixindir,
Nizaminin ruhu gəzir,
Məhsətidən qalan bəsdir,
Eşitsinlər eşitməzlər,
Hər daşını tarix bəzər.

Naxçıvanın Cavid yurdu,
Söz ustadı Cəlil oldu,
Ulu Heydər dövlət qurdu,
Vətənim azad ucalır,
Hər günümə bir arxadır.

Şirvan eli hər deyəndə,
Şeir, sənət düşür yada,
Tarixlərdən gəlir səda,
Xəqanidən, Nəsimidən,
Seyid Əzim, həm Sabirdən.

Mərd oğullar diyarında,
Qazax, Tovuz torpağında,
Vurğun, Şıxlı sağlığında,
Saz, söz demək dəbdə olmuş,
Hüseyn Arif şeirlər qoşmuş.

Qonaq gəlsə Lənkərana,
Böyük hörmət vardır ona,
Pürrəngi çayla limona,
Süfrələrdə daim yer var,
İçən böyük ləzzət alar.

İsmayıllı qəlbimdədir,
Lahıc yolu burdan keçir,
Əfsanələr məskənidir.
Qədim sənət ocağında,
Neçə-neçə mahir usta,
İndi də tarix yaradır,
Gələn nəslə yadigardır.

Qarabağım bu gün darda,
Pənah xanın qəbri qorda,
Üzeyirin ruhu orda,
"Gənci" çalıb, üsyan deyər,
Bu torpağa zəfər gələr,
Düşmənlərdən qalmaz əsər.

Rəngarəngdir elim, obam,
Hər birində alov, odam,
Olmaz onsuz dünya tamam,
Bircə kəlmə gəlir candan,
Var ol, bütöv Azərbaycan.

Obaların duz-çörəkli,
Dosta dost kimi gərəkli,
Çöllərin var gül-çiçəkli,
Bu diyara dost tək gəlin,
Xalı-xalça yerə sərin,
Axşam üstü sərin-sərin,
Muğamatı siz dinləyin.

Hər muğamda bir aləm var,
Başa düşən onu duyar,
Gəzsən əgər diyar-diyar,
Hər diyarda xanəndələr,
Təzə xalla qəzəl deyər,

Bir xalıdır Azərbaycan,
Naxışları gözəl əlvan,
Hər naxışı nağıl, dastan,
Tarixləri bilinməyir,
Babalardan xəbər verir,
Hər nəsil bir naxış edir.

***10-14.09.2017***

## *Yaşayaram mən*

Qar ələnir, külək əsir,
Ocaq yanır, etmir təsir,
Bir körpə dünyaya gəlir.
Muştuluğu nənəm verir,
Yaşayıram, zaman keçir.

Yağış atır hərdən-birdən,
Tutub səhər bir əlimdən,
Deyir, daha məktəblisən.
Mənlə birgə anam gedir,
Yaşayıram, zaman keçir.

Bir yaz günü göy çəməndə,
Gül-çiçəklər bitən yerdə,
Ürək açdım sevgilimə.
Həyat bizə nələr deyir,
Yaşayıram, zaman keçir.

Sevdiyimlə ömür sürdüm,
Həyatda mən nələr gördüm,
Sevinclə dərd-qəmi böldüm.
Dost-tanışlar bunu bilir,
Yaşayıram, zaman keçir.

Saç-saqqala dən düşəndə,
Dostlar bir-bir tərk edəndə,
Mən dağlardan gen gəzəndə.
Qələm-dəftər kömək edir,
Yaşayıram, zaman keçir.

Vaxt gələndə köçsəm belə,
Əsərlərim qalar hələ,
Oxusalar onu yenə.
Heç olmasa bircə nəfər,
Yaşayaram, zaman keçər.

***10.04.2018***

## *Nənəmin nağılları*

Yenə Lahıcın bağları yadıma düşdü,
Bir fəryad elədim, o illər hanı?
O Xanım nənəmin məzəli sözü,
Cibindən verdiyi şirnilər hanı?

Nənəmin dediyi bir nağıl, dastan,
Hər sözü bir hikmət, yadımda qalan.
İndi anlayıram, gec olsa zaman,
De görüm o duzlu kəlmələr hanı?

Nənəyə körpələr necə də şirin,
Körpələr dərk etmir, düşünmür dərin.
Vaxt keçsə xatırlar, olsa da həzin,
Bayatı söyləyən o dillər hanı?

Hafiz o günləri yaxşı xatırlar,
Nənənin nəfəsi üçün darıxar.
Yenə o mülk durur, yenə o bağ var,
Nənəmin sorağı qəlb deyər, hanı?

***17.04.2018***

## Söz yarası yaman olar

Söz yarası yaman olar,
Bir ocaqdır, odsuz yanar.
Əqrəb təkin sancar, çalar,
İti xəncər qəlbdə qalar,
Ürəyimə izlər salar.

Söz deməzdən düşün bir az,
Oxuyanda əlində saz.
Sözlərini əvvəldən yaz,
Qoy, bilinsin qara, bəyaz,
Yersiz kəlmə əhval pozar.

Söz eyləyər yaxın, uzaq,
Bilir bunu böyük, uşaq.
Ağ paltara qara yamaq,
Gündüz əldə yanar çıraq,
Söz deməyin təhəri var.

Bir mirasdır babalardan,
Yadigardır analardan.
Doymaq olmur sanki yardan,
Tapılarsa söylə hardan?
Yerində söz dərdi alar.

Hafiz sözün ölçər, biçər,
Hər bir sözə verər dəyər,
Düz gələrsə, onu deyər,
Düz olmasa, susar gedər,
Həyat özü yol göstərər.

***05-06.06.2018***

## *Özün söylə*

Bu qədər can alan canan,
Olarmı bəs, özün söylə.
Bir söz deyib, dərdə dərman,
Taparmı bəs, özün söylə.

Bir mərhəmət istərəm mən,
Zalım qəlbin etsin hərdən.
Könlüm xəbər göndərməsən,
Yanarmı bəs, özün söylə.

Çox gözəllər etmiş cövlan,
Naz-qəmzəylə zaman-zaman.
Gül-çiçəklər gəlsə xəzan,
Solarmı bəs, özün söylə.

Yadına sal əhdi-peyman,
Eylədin sən mənlə candan.
O sözlərin indi yaddan,
Çıxarmı bəs, özün söylə.

Rəqibə çox can atma sən,
Zülmə dözməz qəlbim indən.
Səbrim axır, deyim ki, mən,
Dolarmı bəs, özün söylə.

Keçsə günlər, ötsə aylar,
Həyat özü verər qərar.
O günlərdən bir intizar,
Qalarmı bəs, özün söylə.

Səndən başqa vardır kimim?
Bu sevgidən nakam qəlbim.
Bir xoş xəbər hərdən deyim,
Alarmı bəs, özün söylə.

Ürəyimə vurma yara,
Onsuz könlüm para-para.
Nə vaxt isə Hafiz yara,
Çatarmı bəs, özün söylə.

***16-17.06.2018***

## *Xəzri*

Yenə xəzri əsir Bakıda bu gün,
Bakını qardaş tək qucaqlayıbdır.
Əzəldən doğma o, olduğu üçün,
Bakını büsbütün çulğalayıbdır.

Bir gün əsməyəndə darıxır ürək,
Bəlkə də yorulub, gözləyir kömək.
Ay Xəzri, sənə də dincəlmək gərək,
Bütün bu qayğılar sənə qalıbdır?

Bakının adıyla tapmısan şöhrət,
Xəzərin qoynundan yığırsan qüvvət.
Enerjin olubdur əvəzsiz sərvət,
Şıltaqlıq etməyin sonu çatıbdır.

Bəzən bərkdən-bərkdən aynanı döyər,
Yəqin gələcəkdən verir o xəbər.
Bakıya həmişə qayğı göstərər,
Bakıda küləklər məskən salıbdır.

***18-19.07.2018***

## QƏZƏLLƏR

***Yadındamı, bir vaxt sənə söylədim***

Yadındamı, zər qədrini zərgər bilər, söylədim,
Səni görsəm gələr təbim, qəlbim gülər, söylədim.

Biz qovuşduq, bəzən küsdük, bəzən isə barışdıq,
Fərqi yoxdur, ay sevgilim, getdi kədər, söylədim.

Hər dilbərə söz demədim, amma səni ki, gördüm,
Bir baxışa öz-özümə, nədir qəmər, söylədim.

Gəl darıxma, illər keçər, yaşımıza yaş gələr,
Həyat getsə dayanmadan, mənəm çəpər, söylədim.

İllər ötər, sular axar, saç ağarsa, etmə qəm,
Hər ötən il sevgimizə sevgi verər, söylədim.

Sevənlərin əyarıdır keçsə illər birlikdə,
Dediyimə dəstək olar neçə nəfər, söylədim.

Bir dastana çevrilmişdir, ay sevgilim, sevgimiz,
Ötdü Leyli Məcnunu da filan qədər, söylədim.

Çox sevənlər qibtə edər, getsə zaman tərsinə,
Fərhad ilə Şirinə də çatsa xəbər, söylədim.

Çalışdılar nazəninlər etsin məni imtahan,
Görən deyir, çək-çevirlər gedir hədər, söylədim.

Aləm görür, Hafiz bilir sevgisinin qədrini,
Bu əhvalat gələcəyə edər səfər söylədim.

***13-14.06.2018***

## *Qəzəl yazım*

Qəzəl desəm anam deyən dildə gərək,
Qəzəl yazım qəlbdən gələn sözlə gərək.

Söz tapmasam bir azacıq düşünərəm,
Başqa dildən söz yazılsın, niyə gərək.

Dildə yamaq qəzələ verməz yaraşıq,
Hər qəzəldən sonra lüğət nəyə gərək.

Qəzəl ruhu oxşayanda gözəl olar,
Gözəl görsəm ürək qəzəl deyə gərək.

Qəzəl özü muğamatdır, ahəngi var,
Muğamatla qəzəl qalxsın göyə gərək.

Qəzəl çatıb babalardan bir yadigar,
Qəzəl deyən sarı simə dəyə gərək.

Qəzəl yazmaq hər şairin işi deyil,
Qəzəl odur ürəkləri yeyə gərək.

Səndən qabaq çox ustadlar qəzəl yazmış,
Növbə, Hafiz çatıb sənə, elə gərək.

***28-29.06.2018***

## *Sən olarsan*

Eşqimdə mənə həmişə həyan sən olarsan,
Bu mərəzi sağaltmağa loğman sən olarsan.

Görcək səni qəlbim sancdı dərhal necə sancdı,
Külli aləm bildi mənə canan sən olarsan.

Ahu-zarım göylərə görsən ki, necə qalxdı,
Göylər rəhmə gəlib versə fərman sən olarsan.

İndi ixtiyar səndədir çarə eləyərsən,
Bir kəlmə ilə müşkülə səhman sən olarsan.

Deyim düzü hər gözələ savab olar yəqin,
Züleyxadan sonra qalan dastan sən olarsan.

Səndən başqa gözələ sözümü heç deyərəm mən,
Qorxum onda, əhd-peymanı pozan sən olarsan.

Bilir Hafiz, eşqinin dəyəri ölçülməzdir,
Qəlbində həkk olunub bircə qalan sən olarsan.

***19-21.07.2018***

## *RÜBAİLƏR*

### *Elm cövhər çıxardar*

İnsanlar elm ilə olublar insan,
Elmi kənar qoyar həyatda nadan,
Elm cövhər çıxardar dağlar yararaq,
Elmə dəyər vermiş uca yaradan.

***06.10.2017***

### *Yarada bilməz*

Bir çıraq yandırdın, desəm, ay mələk,
Yaratmaq eşqimə eylədin kömək.
Yüz mələk yığılsa yarada bilməz,
Yüzdən birisini yaratsa ürək.

***06.06.2018***

### *Köməyi öz əlim özümə edir*

Söz versəm dostuma sayaram təhqir,
Kömək lazımdırsa, lazımam bilir.
Demirəm, dosta mən uzatdım əli,
Çünki köməyi öz əlim özümə edir.

***07.06.2018***

### *Zəhmətin haqqı*

Zəhmətlə qazansan aləmdə ad-san,
Vaxt ötər, daima yadda qalarsan.
Bir mənsəb sahibi əgər ki olsan,
Mənsəbdən düşəndə yaddan çıxarsan.

***13.06.2018***

### *Xoşbəxtlik meyarı başqadır, başqa*

Çalışıb var-dövlət əldə eləsən,
Düşünmə xoşbəxtlik əldə edərsən.
Xoşbəxtlik ölçülür başqa meyarla,
Çalış o meyarı əldə elə sən.

***17.06.2018***

### *Dəyişən nədir?*

Dəyişən zəmanədir, yoxsa ki, insan?
Bu sual verilir hər zaman, hər an.
Dünya öz ahəngiylə fırlanan zaman,
İnsanlar həyatından verir imtahan.

***26.06.2018***